# Türk dünyasının sabahını dəqiq proqnozlaşdıran lider

## *Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi xalqlarımızın birliyini gücləndirir*

***Buna bəsirət gözünün açıq olması deyirlər və o həssaslıq siyasətçilərin hamısında olmur. Amma İlham Əliyevdə var. Çünki o, Heydər Əliyev siyasi məktəbinin məzunudur. Görkəmli dövlət və hökumət xadimi olmuş Nikolay Baybakov yazmışdı ki, Heydər Əliyev atdığı hansısa siyasi addımdan sonra qarşı tərəfin atacağı üç-dörd addımı belə proqnozlaşdıra bilirdi. Buna siyasi müdriklik deyənlər də var, bunu uzaqgörənlik adlandıranlar da, strateji məharət kimi qiymətləndirənlər də.***

Qanında və canında türk dünyasına xidmət etmək məramı, siyasi fəaliyyətində türkdilli ölkələrin işbirliyinə nail olmaq istəkləri olan İlham Əliyev bu arzularını təkcə Prezident seçiləndən sonra reallaşdırmadı. O, Azərbaycan parlamentinin AŞPA-dakı daimi nümayəndəliyinin rəhbəri olanda da bu istiqamətdə addımlar atmışdı. O, Prezident seçildikdən sonra Türkiyə başda olmaqla, bütün türkdilli ölkələrlə əməkdaşlığa xüsusi önəm verəndə də, hətta hansısa xarici ölkəyə səfəri zamanı oradakı türk diasporunun təmsilçiləri ilə görüşəndə də bu məqsədə xidmət etmişdir. O, ikinci dəfə prezident seçiləndən cəmi bir il sonra – 2009-cu il oktyabrın 3-də Türkiyə, Qazaxıstan və Qırğızıstanın dövlət başçılarını Naxçıvana dəvət edərək Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının təsis edilməsi üçün saziş imzalanmasına nail olanda da bu amala xidmət edirdi.

O, 2009-cu ildə türk dövlətlərinin başçılarını Bakıya, Gəncəyə, Sumqayıta və sonralar reallaşdırdığı kimi, Qəbələyə dəvət edə bilərdi. Amma onları Naxıvana dəvət etmişdi və Naxçıvan Sammitində möhtəşəm bir perspektivdən söz açmışdı: "1920-ci ildə sovetlər hakimiyyəti Zəngəzuru Azərbaycandan qoparıb Ermənistana verməklə türk dünyasının coğrafi bağlantısını pozmuşdur və bunu xəritəyə baxmaqla hər kəs görə bilər". Bu, sadəcə müdiklik nümunəsidir. İlham Əliyev sanki 2009-cu ilin payızında bu gün dünyada gedən prosesləri görürdü. Görməsəydi, Naxçıvan sammitində "XXI əsr türk əsri olacaq" tezisini səsləndirməzdi.

Dövlət başçımız bu istiqamətli başqa bir tezisi isə 2019-cu il oktyabrın 15-də – Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Bakıda keçirilən VII Zirvə görüşündə səsləndirmişdi: "Azərbaycan bu gündən Türk Şurasına sədrliyi öz üzərinə götürür. Sizi əmin edirəm ki, Azərbaycan təşkilata sədrliyi dövründə ölkələrimiz arasında həm ikitərəfli, həm də çoxtərəfli səviyyədə əməkdaşlığın daha da dərinləşməsi istiqamətində səylərini davam etdirəcək".

Azərbaycan Prezidenti bu istiqamətdəki fəaliyyətini böyük məsuliyyətlə davam etdirdi və nələrə, hansı uğurlara imza atdığımız barədə konkret faktları bu il noyabrın 12-də, TDƏŞ-in İstanbulda keçirilən VIII Sammitində eşitdik. Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbacan dövlət başçısının türk dünyası qarşısındakı xidmətlərini qiymətləndirərək dedi: "Vətən müharibəsi nəticəsində illərdir tətbiq olunmayan BMT Təhlükəsizlik Şurasının qətnamələri həyata keçirilmişdir. Azərbaycan bu yolla beynəlxalq ictimaiyyətin yaddaşına ədalət mesajını həkk etmişdir".

Qardaş ölkənin dövlət başçısı xatırlatdı ki, Azərbaycanın ərazi bütövlüyünü yenidən təmin etməsi türk dünyasının birliyini və bərabərliyini genişləndirmişdir. Qarabağın azadlığının rəmzi olan "Xarıbülbül" türk dünyası üçün Zəfərin müjdəçisi olmuşdur: "Qarabağ Zəfəri ilə təkcə işğal altındakı torpaqlar azad edilməyib, eyni zamanda, bölgəmizdə həsrətini çəkdiyimiz davamlı sülh, sabitlik və əməkdaşlığa gedən yolun da önü açılıb".

Türkiyə Prezidentinin İstanbulda Azərbaycan Prezidentinə "Əziz qardaşım, müzəffər Ali Baş Komandan cənab İlham Əliyev" – deyə müraciət etməsi türk dünyasında, xüsusən, Azərbaycanda hansı coşqu ilə qarşılanmışdısa, Ermənistanda və işğalçılara himayədarlıq edən ölkələrdə o qədər kədər və həyəcan doğurdu.

Hələ bu az imiş kimi, bədxahlarımıza, türkofobiya xəstəliyinə tutulanlara İstanbulda daha ağır bir zərbə də vuruldu. Belə ki, TDƏŞ-in Dövlət Başçıları Şurası Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın təklifi ilə İlham Əliyevin "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilməsi haqqında qərar qəbul etdi. Təbii ki, bu, türk dövlətləri tərəfindən Azərbaycan Prezidentinin işinə, fəaliyyətinə verilən çox yüksək mükafat, yüksək qiymətdir.

Prezident İlham Əliyev 2019-cu ildə TDƏŞ-in sədrliyini qəbul edərkən demişdi ki, "Azərbaycan təşkilata sədrliyi dövründə ölkələrimiz arasında həm ikitərəfli, həm də çoxtərəfli səviyyədə əməkdaşlığın daha da dərinləşməsi istiqamətində səylərini davam etdirəcək". İstanbulda isə dövlət başçımız böyük üzağlığı ilə vurğuladı ki, Azərbaycan ikiillik sədrlik dönəmində türk dünyasının birləşməsi üçün böyük səylər göstərmişdir. Bir çox tədbirlər keçirilmişdir. Son iki il ərzində önəmli hadisələrdən biri Türkmənistanın bizim təşkilata müşahidəçi qismində qoşulmasıdır.

BMT-dən başqa heç bir beynəlxalq təşkilata qoşulmayan, tam neytral fəaliyyət göstərən Türkmənistanın TDƏŞ-ə müşahidəçi qismində qoşulmasından söz açan dövlət başçımız dedi: "Bu da təbiidir və mən böyük məmnuniyyətlə bu haqda bu gün hələ ki, təşkilata sədrlik edən şəxs kimi deyirəm. Bizim türkmən qardaşlarımızı da ürəkdən salamlayırıq və bu, çox önəmli addımdır. Eyni zamanda, Bakı Zirvəsində Özbəkistan bizim şuraya üzv oldu, bu da çox önəmli hadisədir. Mən xatırlayıram, 2009-cu ildə Naxçıvan Zirvə görüşündə o vaxt Naxçıvan sazişi imzalanmışdı. Onu dörd lider imzalamışdı. Amma bu gün bizim sayımız 7-yə çatıb".

TDƏŞ-in İstanbul Sammitini bizim üçün əlamətdar edən məqamlardan biri də o idi ki, cənab Rəcəb Tayyib Ərdoğan bu qurumun fəaliyyətindəki uğurları sadalayarkən öncə Azərbaycanın işğaldan azad edilmiş Zəngilan rayonunda görülən quruculuq işlərini yada saldı: "Ağıllı şəhərləşmə sahəsində işğaldan azad edilən Zəngilanda başladılan təşəbbüs, Türkistanın inkişafı, Ahaldakı intensiv fəaliyyətlər, Budapeştdə görülən işlər, Qırğızıstanda və Özbəkistandakı fəaliyyətlər təqdirəlayiqdir".

Sonda İstanbul Zirvə görüşünün Ankaradan gələn bir əks-sədasını yada salmaq istərdim. Qardaş ölkənin ali məktəblərindən birinin professoru "AzTV"-nin əməkdaşına verdiyi müsahibədə dedi: "Türk Şurasına Azərbaycanın sədrlik etdiyi iki ildə əvvəlki beş ildəkindən çox irəliləyiş olmuşdur. Ona görə də Dövlət Başçıları Şurasının İlham Əliyevin xidmətlərini yüksək səviyyədə qiymətləndirməsi olduqca ədalətli qərardır".

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

***"Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan, Zati-aliləri İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının ərazilərinin işğaldan azad edilməsini və ərazi bütövlüyünün bərpasını təmin edərək türk birliyinə mühüm töhfə verən və bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına yol açan tarixi qələbəyə görə Dövlət Başçıları Şurası Türkiyə Respublikasının Prezidenti, Zati-aliləri Rəcəb Tayyib Ərdoğanın təklifi ilə Zati-aliləri İlham Əliyevin böyük şərəflə "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilməsi haqqında qərar qəbul etmişdir".***

***Türkdilli Ölkələrin Dövlət Başçıları Şurasının qəbul etdiyi qərardan***
***İstanbul, 12 noyabr 2021-ci il***

